

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 dekabr 2023-cü il №97 (2809) https://mod.gov.az Qiymәti 30 qəpik

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Biz, şanlı Azərbaycan Ordusu dünyaya sübut etdik ki, bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır

*Dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd rayonuna səfər ediblər.*



Dövlətimizin başçısı və birinci xanım rayonun Qırmızı Bazar qəsəbəsində olublar.

Qəsəbə 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində Qırmızı Bazar qəsəbəsi separatçılardan təmizlənib.

Qeyd edək ki, Qırmızı Bazar Xocavənd rayonunun iki qəsəbəsindən biridir və olduqca əlverişli strateji mövqedə, mühüm yolların kəsişməsində yerləşir. Qırmızı Bazara 1947-ci ildə qəsəbə statusu verilib. Qəsəbənin ərazisi təbii sərvətlər, meşə zolaqları və şirin su ehtiyatları ilə zəngindir. İşğaldan əvvəl qəsəbədə gövdəsinin diametri 600 santimetr, hündürlüyü 25 metr, yaşları min və iki min il olan iki Şərq çinarı qədim təbiət abidəsi kimi qorunurdu. Qəsəbə, eyni zamanda, kənd təsərrüfatı və turizm potensialına malikdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 20-də Xocavənd rayonunun Şıx Dursun kəndində olublar.

Dövlətimizin başçısı və birinci xanım kənddəki "Çinar müqəddəs yer" abidə kompleksinə baxış keçiriblər.

Qeyd edək ki, Qırmızı Bazar qəsəbə inzibati ərazisi dairəsinə daxil olan Şıx Dursun kəndi 1992-ci il oktyabrın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Kənd 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib.

Kənddə 2500 ilə qədər yaşı olduğu təxmin edilən çinar nəinki Azərbaycanın, dünyanın ən yaşlı ağaclarından biri sayılır. Ağacın hündürlüyü 54 metr, gövdəsinin diametri 27 metrdir. Ağacın yaxınlığında onu su ilə təmin edən Tenqri bulağı yerləşir.

* * *

Dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı rayonunda olublar.

Dövlətimizin başçısı və birinci xanım rayonun qədim Şuşakənd kəndinin ərazisinə baxış keçiriblər.

Qeyd edək ki, Şuşakənd kəndi 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Kənd 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra separatçılardan təmizlənib.

Qədim tarixə malik kənddə bəzi tədqiqatlara görə, eramızın əvvəllərində Şimali Qafqaz çöllərində yaşamış türkdilli tayfalar məskunlaşıb.

Kəndin ərazisi turizm və kənd təsərrüfatı potensialına malikdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Şuşa şəhərində 23 binadan ibarət ilk yeni yaşayış kompleksində aparılan tikinti işlərinin gedişi ilə tanış olub.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına görülən işlərlə bağlı ətraflı məlumat verib.

Bildirilib ki, 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Burada 8 binanın tikintisinə ötən il iyulun 1-də, 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb. Kompleksin yaxın vaxtlarda istifadəyə verilməsi planlaşdırılır.

Dövlətimizin başçısı yaşayış kompleksində hazır mənzillərə baxıb.

Məlumat verilib ki, yaşayış kompleksində ümumilikdə 450 mənzil istifadəyə veriləcək. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzil olacaq. Mənzillərin əksəriyyəti keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcək. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Keçmiş məcburi köçkünlərin bu binalara köçürülməsinə 2024-cü ilin birinci rübündə başlanılacaq.

Diqqətə çatdırılıb ki, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

* * *

Dekabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa şəhərinin Qarabağ küçəsində aparılan tikinti işləri ilə tanış olub.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib.

Bildirilib ki, şəhərin mərkəzi küçəsinin layihəsi ümumilikdə 10 bina olmaqla dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində həyata keçirilir. Tikilməkdə olan binalarda artıq dəmir-beton konstruksiya işləri yekunlaşmaq üzrədir. Binalarda fasad və dam örtüyü işlərinə tezliklə başlanılacaq. Həmçinin layihə çərçivəsində Sadıqcanın evinin bərpa işlərinə də başlanılıb.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti bu küçəyə rəmzi olaraq "Qarabağ" adını verib. Gövhər Ağa məscidi, "Qarabağ" oteli, xüsusi nümayəndəliyin binası Şuşanın mərkəzini əhatə edən bu küçədə yerləşir. Küçənin yenidən qurulması zamanı Şuşanın tarixi-milli memarlıq üslubunun qorunması xüsusilə diqqət mərkəzində saxlanılır. Tikinti işləri yüksək səviyyədə həyata keçirilir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Şuşa rayonunun Daşaltı kənd məscidində tikinti işlərinin gedişi ilə tanış olub.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib.

Azad edilmiş ərazilərimizdə işğal dövründə düşmən tərəfindən dağıdılmış dini-mədəni abidələrimiz bərpa olunur və yeniləri tikilir. Bunlardan biri də Daşaltı kənd məscididir. Daşaltı məscidinin təməli 2021-ci il noyabrın 7-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Hazırda məsciddə, köməkçi binalarda və istinad divarında dəmir-beton və daş hörgü işləri davam edir. Tikinti işlərinin 2024-cü ilin ikinci rübündə başa çatdırılması planlaşdırılır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Xocalı rayonunun Dağdağan kəndində olub.

Dövlətimizin başçısı kəndin ərazisinə baxış keçirib.

Qarabağ dağ silsiləsinin ətəyində yerləşən Dağdağan kəndi 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində kənd separatçılardan təmizlənib.

* * *

Dekabrın 21-də xalqımız tarixi hadisəyə şahidlik edib. Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 18 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları qarşılaşıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oyuna baxmaq üçün stadiona gəliblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səslənib.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Dövlətimizin başçısı oyundan əvvəl stadionda çıxış edib.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Biz, şanlı Azərbaycan Ordusu dünyaya sübut etdik ki, bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır



(Əvvəli 1-ci səhifədə)

**Prezident İlham Əliyevin çıxışı**

- Əziz dostlar, Xankəndiyə xoş gəlmisiniz!

İlk dəfədir ki, işğaldan azad edilmiş ərazilərdə futbol matçı keçirilir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu gün qəhrəman şəhidlərimizin uşaqları, ailə üzvləri bizim yanımızdadır. Gəlin, hamımız birlikdə onları salamlayaq.

Bu futbol matçının Xankəndidə keçirilməsinin çox böyük mənası var. Xankəndi qədim Azərbaycan diyarıdır. Bu kəndin təməli Qarabağ xanı tərəfindən qoyulmuşdur və ondan sonra Azərbaycan Respublikasının vəsaiti hesabına Azərbaycan memarları, inşaatçıları tərəfindən böyük şəhər yaradılmışdır. Əfsuslar olsun ki, 30 il ərzində bu şəhərdə separatçılar yuva salmışdılar. Bu şəhər separatizmin rəmzinə çevrilmişdi. Torpaqlarımızı 30 il ərzində işğal altında saxlayan Ermənistan hesab edirdi ki, bunu əbədi edə biləcək. Biz, şanlı Azərbaycan Ordusu onlara və bütün dünyaya sübut etdik ki, bu, bizim tarixi, əzəli torpağımızdır. Bu torpaqların sahibləri bizik, Azərbaycan xalqıdır. Biz buraya qayıtmalı idik və qayıtmışıq.

Üç ay bundan əvvəl Xankəndi işğaldan azad edildi. Birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir, bu gün bütün Qarabağ bölgəsində Azərbaycan Bayrağı dalğalanır. Bu, böyük tarixi hadisədir və bu tarix bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, dünya azərbaycanlıları bu Zəfər ilə bundan sonra əbədi fəxr edəcəklər.



Biz - bu torpaqların sahibləri qurub-yaradırıq, o cümlədən Xankəndi şəhərində, Xocalıda, işğaldan azad edilmiş digər ərazilərdə geniş quruculuq-abadlıq işləri aparılır. Bu stadion cəmi iki ay ərzində, demək olar ki, yenidən inşa edilmişdir, əsaslı təmir olunmuşdur. Separatizm simvolikasını əks etdirən bütün yazılar artıq tarixin zibilxanasına atıldı. Bütün başqa şəhərlər kimi, bu gün Ağdam şəhəri də yenidən qurulur. O cümlədən bir neçə aydan sonra Ağdam şəhərində "İmarət" stadionunun yenidən inşa edilməsinə başlanılacaq.



Bugünkü oyunun nəticələrindən asılı olmayaraq qalib bəllidir. Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir! Bugünkü oyunda "Qarabağ" və Mərkəzi Ordu İdman Klubunun qarşılaşması təbii ki, böyük rəmzi məna daşıyır. Qarabağ-Ordu-Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir.

Əziz dostlar, dörd il bundan əvvəl bu stadionda bəziləri "Qarabağ Ermənistandır və nöqtə" demişdilər. Biz onlara sübut etdik ki, Qarabağ Azərbaycandır!

İşğal edilmiş torpaqların böyük hissəsi üç il bundan əvvəl - İkinci Qarabağ müharibəsi nəticəsində işğalçılardan azad edildi. Qarabağın tacı olan Şuşa şəhərində Azərbaycan Bayrağı qaldırıldı. Üç ay bundan əvvəl - sentyabrın 19-20-də Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə rayonları da işğalçılardan azad edildi. Oktyabrın 15-də bütün bu şəhərlərdə mən Azərbaycan Bayrağını ucaltdım. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradı keçirildi. Bu gün isə bu gözəl idman bayramını biz birlikdə qeyd edirik.

Bundan sonra bu torpaqlarda Azərbaycan Bayrağı əbədi dalğalanacaq. Biz azərbaycanlılar burada əbədi yaşayacağıq! Yaşasın Qarabağ! Yaşasın şanlı Ordumuz! Qarabağ Azərbaycandır!

* * *

Sonra Ulu Öndər Heydər Əliyevin idmançılarla görüşləri, idmanla bağlı fikirləri barədə videoçarx nümayiş olunub.

Stadiona daxil olan dövlətimizin başçısı futbolçularla və oyunu idarə edən hakimlərlə görüşdü, onlarla xatirə şəkli çəkdirib.

Prezident İlham Əliyevin topa rəmzi toxunuşundan sonra "Qarabağ"-MOİK görüşü başlayıb.

Maraqlı idman mübarizəsi şəraitində keçən görüş "Qarabağ" komandasının 1:0 hesablı qələbəsi ilə başa çatıb. "Qarabağ"ın futbolçusu Nəriman Axundzadənin matçın əsas vaxtına əlavə olunmuş 3-cü dəqiqədə vurduğu qol oyunun taleyini həll edib. Bununla da N.Axundzadə işğaldan azad olunmuş ərazilərdə 30 ildən sonra keçirilən ilk futbol matçında fərqlənən hücumçu kimi tarixə düşüb.

* * *



Dekabrın 21-də Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun səkkizdəbir final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları arasında keçirilən oyunun fasiləsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü ilin idman yekunları ilə bağlı təşkil olunmuş mərasimdə idman ictimaiyyətinin təltif edilmiş nümayəndələri ilə görüşüb.

Görüşdə çıxış edən Prezident **İlham Əliyev** deyib:

- Xoş gəlmisiniz Xankəndiyə!

İdmançılarla ənənəvi görüşü bu il Xankəndidə keçiririk. Bunun çox böyük mənası var. Sizi, ilk növbədə, əldə edilmiş uğurlar münasibətilə təbrik etmək istəyirəm. Siz öz zəhmətinizlə dövlətimizin idman şöhrətini göylərə qaldırmısınız və Azərbaycan dövləti də sizi mükafatlandırmaqda tam haqlıdır, çünki siz buna layiqsiniz.

Bu gün burada düzülən mükafatlar, mənzillərin orderləri, digər mükafat növləri sizə işğaldan azad olunmuş Xankəndi şəhərində tarixi futbol matçının fasiləsində təqdim edilir. Bu münasibətlə sizi ürəkdən təbrik etmək istəyirəm.




Yarışlar çox olub. Ancaq bugünkü yarış tarixdə əbədi qalacaq, həm xalqımız üçün, dövlətimiz üçün, dünya üçün. Dünyada hələ ki, belə bir nümunə olmayıb ki, xalq, dövlət öz torpağını - uzun illər işğal altında olmuş torpaqları döyüş meydanında qan tökərək, şəhidlər verərək azad etsin, qursun, yaratsın və cəmi üç ildən sonra artıq azad edilmiş torpaqlarda futbol matçı keçirilsin, vətəndaşlar Bakıdan, digər yerlərdən gəlib buna tamaşa etsinlər və qürur hissi yaşasınlar. Biz tarix yazmışıq, yazırıq və bu gün dediyim kimi, Xankəndi cəmi üç ay bundan əvvəl azad edilmişdir, ancaq artıq Xankəndi - Azərbaycan şəhəri olan Xankəndi yaşayır və dirçəlir.

Mən bir daha sizi ürəkdən təbrik etmək istəyirəm. Mən sizi buraya dəvət etməklə sizə öz münasibətimi, hörmətimi bildirmək istəmişəm. Bu görüşü biz Bakıda da keçirə bilərdik. Ancaq hesab etdim ki, bu görüşün burada keçirilməsi və sizə bu yüksək mükafatların burada verilməsi tam ədalətli olacaqdır. Bir daha təbrik edirəm.

* * *

Sonra xatirə şəkli çəkdirilib.

* * *

Azərbaycan Prezidenti həmişə olduğu kimi, bu il də idmançılarımızı sevindirib. Belə ki, dekabrın 20-də Prezident İlham Əliyev Azərbaycanda idmanın inkişafında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, 1 nəfər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", 17 nəfər "Tərəqqi" medalı ilə təltif edilib. Bundan başqa, Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə görə 3 nəfərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilib. Həmçinin ölkə idmanının uzunmüddətli səmərəli fəaliyyətinə görə 4 nəfərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü təyin edilib. İdman ictimaiyyətinin 29 nümayəndəsinə isə mənzil verilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə naziri azad edilmiş ərazilərdə xidmət edən hərbi qulluqçularla görüşüb





*Dekabrın 20-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi cənab Məsim Məmmədov və nazirliyin digər rəhbər heyəti azad edilmiş ərazilərdə xidmət edən hərbi qulluqçularla görüşüb.*

Müdafiə naziri şəxsi heyətin fərdi hazırlığının təkmilləşdirilməsi, bilik və bacarığının daha da artırılması üçün üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsinin vacibliyini vurğulayıb. Ali Baş Komandanın istənilən tapşırıqlarının icrasına hər an hazır olmaları hərbi qulluqçuların diqqətinə çatdırılıb.

Cənab Məsim Məmmədov Azərbaycan Respublikası Prezidentinin diqqət və qayğısı sayəsində ölkəmizin bütün bölgələrində, o cümlədən azad edilmiş ərazilərdə hərbi qulluqçuların maddi-texniki təminatının, sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb. Bu işlərin gələcəkdə də davam etdiriləcəyinə əminlik ifadə edib.

Sonra xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu qiymətli hədiyyələrlə təltif edilib.



Nazir təqdim edilən hərbi texnikalara baxış keçirib, onların heyətlərinin hazırlığını yoxlayıb.

Hərbi hissədə yaradılan şəraitlə maraqlanan müdafiə nazirinə məruzə edilib ki, burada silah otağı, yataqxana, yeməkxana, mətbəx, ərzaq və əşya anbarları, hamam-sanitar qovşağı, camaşırxana-qazanxana və ərazinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar mövcuddur.

General-polkovnik Zakir Həsənov hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması, eləcə də döyüş hazırlığının yüksək səviyyədə saxlanması ilə bağlı aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verib.

Sonda şəxsi heyətlə birgə nahar edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**





# Diplomatiya könüllüləri Cəmşid Naxçıvanski adına Hərbi Liseydə olublar



*Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə əlaqədar plana uyğun olaraq keçirilən silsilə tədbirlər davam etdirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlər çərçivəsində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən diplomatiya könüllüləri Cəmşid Naxçıvanski adına Hərbi Liseydə olublar.

Qonaqlar əvvəlcə hərbi liseyin Heydər Əliyev Muzeyinə gələrək burada Azərbaycan xalqının Ümummilli Liderinin xatirəsinə ucaldılmış abidə önünə gül dəstələri qoyub, Ulu Öndərin həyat və siyasi fəaliyyətini əks etdirən foto-guşə ilə tanış olublar.

Sonra Ulu Öndərin 100 illiyi ilə əlaqədar keçirilən tədbirdə Azərbaycan xalqının Ümummilli Liderinin və Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Azərbaycan Respublikasının Dövlət Himni ifa edilib.



Tədbirdə çıxış edənlər Azərbaycan xalqının tarixində dərin iz qoymuş Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şərəfli ömür yolundan, siyasi fəaliyyətindən, dövlətçiliyimizin, müstəqilliyimizin qurulması və möhkəmləndirilməsi istiqamətində gördüyü misilsiz işlərdən, həyata keçirdiyi uğurlu islahatlardan danışıblar. Qeyd olunub ki, bu gün Ulu Öndərin siyasi xətti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında Ulu Öndər Heydər Əliyevə həsr olunmuş mahnılar səsləndirilib, xatirə fotosu çəkdirilib.

# Vətən torpağı hər bir azərbaycanlı üçün müqəddəsdir

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev: "Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi bilməyən gənc yaxşı vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur, vətənpərvərlik". Ulu Öndərin dediyi kimi, vətənpərvərlik sözü dərin anlama malik bir kəlmədir. Tariximizin səhifələrinə nəzər salsaq, görərik ki, vətənpərvərliyin dərin kökləri vardır. Hər bir insanın qiyməti onun Vətənə, dövlətə xidməti ilə, ləyaqəti isə vətənpərvərlik hissi ilə ölçülür. Babəklərimiz, Cavanşirlərimiz, Mübarizlərimiz, Poladlarımız... bunu əyani olaraq bütün dünyaya sübut etdilər. Vətənimizin cəsur oğulları eli, obası və xalqı üçün yaşayıb, gələcək nəsillər onların həyat və döyüş yollarını örnək bildilər. Onların şücaəti, igidliyi, vətənpərvərliyi və qorxmazlığı sayəsində bu gün torpaqlarımız düşmən əsarətindən azad edildi. Qəhrəman oğulların sayəsində şəhidlərimizin qanı yerdə qalmadı.

Belə vətənpərvər və cəsur oğullardan biri də polkovnik-leytenant Rəşad Nazim oğlu Atakişiyevdir. O, 1985-ci il iyulun 2-də Bakı şəhərində anadan olub. Uşaq yaşlarından hərbçi olmaq istəyib. 9-cu sinfi bitirdikdən sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsilini davam etdirib. 2003-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olub. Kursant vaxtlarında peşəkar müəllimlər tərəfindən keçirilən dərslərdə fəal iştirak edib. Hərb peşəsinin sirlərinə dərindən yiyələnib və gələcəkdə peşəkar zabit olmaq arzusunda olub. Təhsilini başa vurduqdan sonra "leytenant" rütbəsində "N" hərbi hissəsinə taqım komandiri təyin edilib. Xidmətə başladığı ilk gündən etibarən təcrübəli müəllimləri tərəfindən öyrəndiyi hərbi bilikləri tabeliyində xidmət edən şəxsi heyətə aşılayıb. Xidmətə yeni başladığı illərdə silahdaşları Kənan Məmmədov, Zahid Əliyev, Rafael Nəcəfov və digərləri ona lazım olan köməyi göstəriblər. Qısa müddət ərzində yuxarı komandanlığın rəğbətini qazanıb. Bacarıqlı zabit olduğu üçün yuxarı vəzifələrə təyin edilib.

Zabitlə söhbətimiz zamanı niyə məhz hərbçi peşəsini seçdiyini soruşduq. Bildirdi ki, biz Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində yaşayırdıq. Orada doğma elindən, obasından didərgin düşən soydaşlarımız da yaşayırdılar. Onlar söhbətimiz zamanı erməni əsgərlərinin qoca, qadın, uşaq demədən hər kəsi işgəncələrlə qətlə yetirdiklərini deyirdilər. Bunları dinlədikcə düşmənə qəzəb, nifrət və qisas hissim artırdı. Həmçinin dayılarımın hərbçi olmağı verəcəyim qərara təsir etdi. Beləliklə, dayım oğulları Buta Zamanov, Sənan Zamanov və mən hərbçi olmaqla düşməndən qisas alacağımızı qarşımıza məqsəd qoyduq. Şükürlər olsun ki, məqsədimizə nail olduq. Qeyd etmək istəyirəm ki, Sənan Zamanov Vətən müharibəsi zamanı yüksək peşəkarlıq və fədakarlıqla savaşaraq şəhidlik zirvəsinə yüksəlib.

Sonra zabit Tovuz döyüşlərindən söz açdı: "Artıq uzun müddət idi ki, "N" hərbi hissəsində xidmətimi davam etdirirdim. Bir müddət sonra hərbi hissə komandiri məni yanına çağırdı. Dedi ki, təcrübəli, vətənpərvər və qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gəldiyin üçün səni yüksək vəzifəyə təyin etmək istəyirik. Bir neçə ay keçdikdən sonra yuxarı vəzifəyə təyin olundum. İlk gündən etibarən bütün şəxsi heyəti gələcək döyüşlərə, mənfur düşməndən qisasımızı almağa ruhlandırırdım. Mütəmadi məşqlər edir, döyüş, atəş, fiziki və mənəvi-psixoloji hazırlıqlarımızı yüksəldirdik. Çünki döyüşlər başlayacağı zaman işğalçılara qalib gəlməli idik. Biz keçirilən dərs və məşğələlər sayəsində gücümüzə güc qatırdıq. Bir neçə ay keçdikdən sonra Ermənistan silahlı birləşmələri Tovuz rayonu istiqamətində növbəti təxribatlara əl atdılar. Həmin gün bizə müəyyən istiqamətdə mövqelənmək üzrə tapşırıq verildi. Verilən tapşırığı qısa zamanda uğurla icra etdik. Sonra general-mayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin və bir neçə məğrur oğullarımızın şəhid olduğu xəbərini aldıq. Lakin bir neçə gün keçdikdən sonra bizə dislokasiya məntəqəmizə geri qayıtmaq barədə tapşırıq gəldi.

Xüsusilə vurğulamaq istərdim ki, Tovuz döyüşləri hərb tariximizə zəfər döyüşü kimi daxil oldu. Bu döyüşlər Azərbaycan Ordusunun düşmənin həyata keçirəcəyi istənilən təxribatın qarşısını almağa qadir olduğunu göstərdi. Hərbi qulluqçularımız qəhrəmanlıq və şücaət nümayiş etdirərək, ermənilərin layiqli cavabı verdilər. Onların 100-dən çox canlı qüvvəsi, onlarla hərbi obyekti məhv edildi. Hətta ordumuzun qarşısında tab gətirə bilməyən işğalçılar səngərləri qoyub qaçmaq məcburiyyətində qaldılar. Biz general-mayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin və digər silahdaşlarımızın qisasını almışıq".

Vətən torpağı hər bir azərbaycanlı üçün müqəddəsdir. Çünki bu torpaqlar bizə əcdadlarımızın əmanətidir. Vətəni qorumaq hər birimizin həm vətəndaşlıq, həm də övladlıq borcudur. Hər bir azərbaycanlı Vətənini sevməli, onun suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü qorumağa borcludur. Danılmaz faktdır ki, insanda vətənpərvərlik hissi qəhrəmanlığın əsasını qoyan amildir.



Doğma diyarımız şanlı tarixi və əfsanəvi qəhrəmanları ilə həmişə fəxr edir. Tarix boyu xalqımız öz Vətənini göz bəbəyi kimi qorumağa hər an hazır olan igid oğullar yetişdirib. Canlarını Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda fəda edən qəhrəman oğullarımız bunu bir daha sübut etdilər. Cavanşirlərimizin, Babəklərimizin, Mübarizlərimizin, Raquflarımızın, Poladlarımızın və adını sadalamadığımız neçə-neçə igid və cəsur oğullarımızın şəxsi nümunəsi bizə deməyə əsas verir ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Məhz onların qəhrəmanlığı, vətənpərvərliyi, şücaəti, qorxmazlığı sayəsində düşmən hücumlarının qarşısı mətinliklə alınıb. Tarix göstərir ki, bu xalq hər zaman öz Vətənini qorumağa hazır olan vətənpərvər oğullar yetişdirib. Onlar erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında canlarını düşmən gülləsinə sipər ediblər. Doğma Qarabağımız gerçək sahibinə qovuşdu. Şəhidlərimizin qisası döyüş meydanında düşməndən alındı. Polkovnik-leytenant Rəşad Atakişiyev də belə qəhrəman Azərbaycan oğullarının sırasındadır. O da Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Vətən müharibəsində iştirak edərək, erməni vandallarından qisasımızı alanlardan oldu. Zabit 44 günlük Vətən müharibəsi ilə bağlı xatirələrini bizimlə bölüşdü.

- 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələri növbəti dəfə beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən mövqelərimizi və yaşayış məntəqələrimizi intensiv şəkildə atəşə tutdular. Cəbhə boyu mövqelərimizə hücum oldu, düşmən genişmiqyaslı təxribata əl atdı. Təxribat nəticəsində mülki şəxslər və hərbçilər arasında şəhidlik zirvəsinə yüksələn və yaralananlar da oldu. Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Müzəffər Ali Baş Komandan ordumuza əks-hücum əməliyyatlarına başlamaq əmrini verdi. İlk gündən etibarən tabeliyimdə olan şəxsi heyətlə Tapqaraqoyunlu kəndi istiqamətində irəliləyib İncəçay dərəsində mövqe tutduq. Texnikaları burada cəmləşdirdikdən sonra hücum çıxış xəttinə doğru irəlilədik. Minalanmış sahəni keçib yol açan mühəndis texnikasının arxası ilə hərəkət edərək, düşmənin böyük dayaq məntəqəsinə doğru hərəkətə başladıq. Əks-hücum başlayan andan düşmən bizi intensiv atəşə tuturdu. Düşmənin həyata keçirdiyi bütün fəaliyyəti daha aydın şəkildə görə bilmək üçün tankın lyukundan döyüşü izləyirdim. Çox keçmədən düşmənin açdığı atəş tankın tırtılına sürtülərək keçdi. Digər texnikalarla rabitə əlaqəsinə çıxıb onlara növbəti döyüş tapşırığı verəndə düşmənin atdığı mərmi tankımıza dəydi. Nəticədə içəri tüstü və duman oldu. Burada isə düşmən çoxlu mövqe qurmuşdu. Heyət üzvləri ilə əlaqə saxladım. Onlar da cavabında hər şeyin qaydasında olduğunu dedilər.

Sonra tankdan çölə çıxdım. Tankın sol tərəfinin zədələndiyini gördüm. Nəticədə top artıq avtomatik atmaq rejimindən çıxmışdı. Lakin bu bizi məqsədimizə doğru getməkdən yayındıra bilməzdi. Sürücü-mexanikə tankı yenidən işə salmağı əmr etdim. İrəlilədiyimiz zaman texnika hərəkət istiqamətini dəyişərək hərəkət edirdi, yəni, tankda idarəçilik pozulmuşdu. Burada manevrlər çox olduğu üçün tank minaya düşdü və tamamilə sıradan çıxdı. Həmin anda biz yenə soyuqqanlılığımızı itirmədik. İlk növbədə şəxsi heyətin vəziyyətini soruşdum. Onlar yenə də hər şeyin qaydasında olduğunu bildirdilər.

Minaya düşmələrinə baxmayaraq, polkovnik-leytenant Rəşad Atakişiyev döyüşü idarə etməkdə davam edirdi. O, yalnız irəliləməyi, şəhidlərimizin qisasını almağı və torpaqlarımızı düşməndən azad etməyi düşünürdü. İllərin qəzəbi və qisası onu döyüş meydanından çıxara bilməzdi. Ard-arda azad edilən torpaqlarımızdan güc alan zabit düşmənə göz açmağa imkan vermirdi.

- Tankın vəziyyətini görəndə anladım ki, bununla daha hərəkət etmək mümkün deyil. Döyüşçülərə texnikada qalmalarını və buradan atəş aparmalarını əmr etdim. Biz hərəkətimizi davam etdirməli idik. Lakin minalanmış ərazidə olduğumuz üçün bu çox çətin idi. Buna görə rabitə vasitəsini götürüb, bütün sürücüləri istiqamətləndirərək, piyada texnikaların önündə onlara yol açmaq üçün hərəkət edirdim. Onlara da atəşi davam etdirməyi tapşırdım. Təhlükəli səddi keçdikdən sonra düşmənin dayaq məntəqəsinə yaxınlaşdıq. Bu zaman bizim yanımıza minaatan mərmisi düşdü. Yaranan partlayış dalğası məni bir qədər kənara atdı. Torpaq yumuşaq olduğu üçün ciddi zədə almadım. Lakin dediyim kimi, məni heç nə amalımdan geri döndərə bilməzdi. Sonra ayağa qalxaraq döyüşə davam etmək üçün arxada olan tanka doğru irəlilədim. Bu zaman düşmən tankımızı tank əleyhinə qurğu ilə vurdu. O zaman gördüm ki, tank arxa hissədən yanır. Özümdə güc toplayaraq tanka doğru gedib, heyətin sağlamlığı haqqında soruşdum. Bu zaman maşın komandiri Cavid Hüseynov hər şeyin qaydasında olduğunu dedi. Sonra bildirdi ki, mənim üzümün sol tərəfi dağılıb və gözümdən qan gəlir. Yaranın isti olduğundan bunu hiss etməmişdim. Anladım ki, bu şəkildə texnikaları idarə etmək olmur. Bu səbəbdən də yenidən piyada texnikaların önünə keçərək, idarəçiliyə başladım. Təqribən 500 metrə qədər ərazidə minalanmış sahələri keçmişdik. Hətta havanın yağışlı olduğundan düşmənin basdırdığı bəzi minalar üzə çıxmışdı. Məndən öncə hərəkət edən mühəndis-istehkam texnikası isə bəzilərin artıq zərərsizləşdirmişdi. Artıq müəyyən bir məsafəni dəf edərək, düşmənə tərəf hərəkət etdik. Lakin texnikanın biri geridə qaldığı üçün onu gətirmək qərarına gəldim. Digərləri kimi, PDM-i də istiqamətləndirməyə başladım. Təəssüflər olsun ki, qısa müddətdən sonra texnikamız tank əleyhinə minanın üzərinə çıxdı. Yaranmış partlayış zamanı ağır yaralandım. Hətta nəfəsim belə gəlmirdi. Daha sonra şəxsi heyət yanıma gəldi. Məni atəş basqısı olmayan yerə apardılar. Vəziyyətim çox pis idi, görməm də artıq itmişdi. Buna baxmayaraq mən yenidən ayağa qalxıb döyüşü davam etdirmək istəyirdim. Deyirdim ki, mən döyüşəcəm. Amma döyüş yoldaşlarım buna icazə vermədilər. Mənfur düşmən dayanmadan artilleriya zərbələri endirirdi. Silahdaşlarım Rusif və Çingiz özlərini mənə sipər edərək qoruyurdular. Müəyyən vaxt keçdikdən sonra təxliyə dəstəsi gələrək, məni oradan çıxardılar. Sonrası isə etiraf edim ki, yadımda deyil. Gözlərimi açanda artıq Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında idim.

Beləliklə, ana Vətənini qanı-canı bahasına qoruyan və yaşadan qeyrətli, igid oğullarımız Azərbaycanın ərazi bütövlüyü uğrunda od-alovdan keçərək şanlı tarix yazdılar. Məhz polkovnik-leytenant Rəşad Atakişiyev kimi igid, cəsur, vətənpərvər oğullarımız sayəsində doğma Qarabağımızın hər bir guşəsində üçrəngli bayrağımız dalğalanır. Əzəli torpaqlarımız yenidən gerçək sahibinə qovuşub.

Xüsusilə vurğulamaq istərdim ki, R.Atakişiyev döyüşlər zamanı göstərdiyi igidliyə görə vaxtından əvvəl polkovnik-leytenant rütbəsi ilə təltif edilib. Ərazilərimizin işğaldan azad olunması və ərazi bütövlüyümüzün bərpa edilməsi zamanı göstərdiyi igidliyə görə polkovnik-leytenant Atakişiyev Rəşad Nazim oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Qarabağ" ordeni və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

*Ordenli igidlərimiz*

# Vətən müharibəsi xatirələrdə

*İkinci Qarabağ müharibəsi müqəddəs amal uğrunda gedən müharibə idi. On illərlə davam edən işğaldan qurtuluş döyüşləri olduğuna görə, xalqın müharibəsi olduğuna görə. Bu müharibə azərbaycançılığın erməniliklə müharibəsi idi, vətənsevərliyin işğalçılıqla müharibəsi idi...*

Nicat Məhərrəmov Qubanın Güləzi kəndində anadan olub. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Hərbi İnstitutu) bitirib.

Orta məktəbdə oxuyanda ermənilərin törətdiyi vəhşilikləri, qırğınları o da eşidirdi, televiziyadan o da izləyirdi. Düşüncələrində heysiyyətli bir sual vurnuxurdu - Niyə? Özünün özünə verdiyi sual illərlə cavabsız qaldı. Sonuncu sinifdə oxuyanda düşündü ki, belə sualların cavabı Ali Baş Komandanın döyüş əmri olacaq, o əmri hərbçilər yerinə yetirəcək. Bu qənaət onun peşə seçimini müəyyənləşdirdi: Hərbçi olmaq!

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin (indiki Heydər Əliyev adına Hərbi İnstitut) kursantı Nicat Məhərrəmov oxudu, çöl təlimləri ilə möhkəmləndi, oxuya-oxuya, öyrənə-öyrənə peşəkarlaşdı. Zabit kimi Hərbi Andı içəndən sonra kursant yoldaşlarına - gənc leytenantlara demişdi ki, kaş qoşunlarda xidmətə başlayan kimi Ali Baş Komandan döyüş əmri verəydi. "Bu niyyət üçün təhsil almışıq, torpaqlarımızın işğaldan azad edilməsinin iştirakçısı olmaq hamımızın arzusudu...", - demişdi.

...2020-ci il sentyabrın son günləri idi. Xidmət etdiyi hərbi birləşmənin müdafiə zolağındaydı, komandirin göstərişlərinin yerinə yetirilməsinə nəzarət edirdi. "Güclü müdafiə mahiyyəti etibarilə hücuma hazırlıqdı" kimi gözəl bir kəlam onun da düşüncələrinin işığına dönmüşdü, səngərlərdən döyüşə qoşulacaqları anı illərlə gözləyənlərin sırasında o da vardı...

İkinci Qarabağ müharibəsi başladı. Hərbi hissə Füzuli istiqamətində döyüşə cəlb olundu. Düşmənin sədlərini, komanda məntəqələrini, mövqelərini artilleriya mərmiləri ilə vurmaq əmri verilmişdi. İlk mərmisi atıldıqdan sonra komanda məntəqəsində atışın dəqiq olduğunu bildirdilər. Divizionun şəxsi heyəti polkovnik-leytenant Nicat Məhərrəmovun baxışlarındakı təşəkkürü sezə bildi, növbəti atışlar da dəqiq oldu. Həmin döyüşdə düşmənin neçə döyüş texnikasının, canlı qüvvəsinin məhv edildiyini bilməsələr də, sonrakı əmrləri də məsuliyyətlə, dəqiqliklə yerinə yetirdilər.

Hərbi hissə döyüş yolunu Cəbrayıl istiqamətində davam etdirdi. Neçə dəfə döyüş əmrini verəndə xəyalən Xu-



dafərini xatırlayıb. Atacaqları mərminin bu tarixi tikiliyə, yüz illərin nişanəsinə qəlpələr dəyib-dəyməyəcəyinin narahatlığını yaşayıb.

Ordu hissələrimiz Cəbrayılın bir hissəsini düşməndən azad etmişdi. Döyüşlər davam edirdi. Qəflətən düşmən əks-hücuma keçdi. Döyüşçülərimiz əks-hücumun qarşısını mərdliklə almışdı. Düşmənin geri çəkilməsi, döyüşçülərimizin hücumu davam etdirməsi üçün artilleriya dəstəyi lazım idi - komandanlıq belə qərar qəbul etmişdi. Əmrin icrası bu hərbi hissəyə, nəzarəti polkovnik-leytenant Nicat Məhərrəmova tapşırılmışdı. Düşmən cinahlardan irəliləməyə, döyüşçülərimizin müdafiə xəttini iki tərəfdən yarmağa cəhd göstərirdi. Onda artilleriyaçılarımız düşmənin hücumda olan qüvvələrini iki istiqamətdən - cinahlardan vurmağa başladı. Düşmən xeyli itki versə də, geri çəkilmirdi. Axşama qədər çəkən döyüşdə artilleriyaçılarımızın atdığı mərmilər düşmənin inadını darmadağın etdi - onların döyüşü davam etdirməyə heyi qalmadı...

Artilleriyaçılar hər atışın Azərbaycan Ordusunu qələbəyə, düşməni məğlubiyyətə apardığının qürurunu yaşaya-yaşaya döyüşürdülər...

"Düşmənin əsas artilleriya batareyasını məhv edən artilleriya batareyamızın sevinci ni Xudafərin işğaldan azad ediləndə də yaşadıq. Bu Qələbəyə görə komandanlıq bizə də təşəkkür elan etmişdi. Xudafərinin işğaldan qurtuluşuna da sevinirdik, onun mərmi qəlpələri ilə "yaralanmamasına" da. Yüz illərə ruhumuzda yaşayan, ruhumuzla yaşadılan Xudafərinin üstündən daha qara yellər əsməyəcəyinə də sevinirdik...", - polkovnik-leytenant Nicat Məhərrəmov belə dedi. Bu kəlmələr də Vətənə sevgidi...

Hərbi hissə döyüşən ordu hissələrinə atəş dəstəyi verirdi, ilk günlərdə düşmənin müdafiə sədlərini dağıtdı, sonra onun müdafiə mövqelərini, komanda və dayaq məntəqələrini, qruplaşmalarını, mövqelərə silah-sursat daşıyan maşın karvanlarını vururdu. "Döyüşçülərimiz Araza tərəf gələn beş-altı yük maşını müşahidə etmişdi. Bu haqda komandanlığa məlumat verməyə vaxt çatmayacaqdı - düşmənin dayaq məntəqəsinə getdiyini güman etdik və onları müşahidə zolağından uzaqlaşmamış vurmağı qərara aldıq. İlk atışlardan sonra maşınların hamısı alışdı...", - polkovnik-leytenant Nicat Məhərrəmov hərbi hissənin şəxsi heyətinin döyüşlərindən qürurla söz açdı. Bu qüruru təkcə bu hərbi hissəyə deyil, Azərbaycan Ordusuna ad olan qürur bildim...

"Müharibənin sonuncu mərmisini hara atdınız?", - soruşdum.

- Müharibədə döyüşçü atdığı ilk gülləni də, son gülləni də unutmur. Mərmi də güllə kimidi. Hərbi hissəmizin artilleriyaçıları son mərmini Xocavənd istiqamətində hücum edən piyadalarımıza dəstək kimi atmışdı. Dəstəyin böyük köməyi olmuşdu. Onsuz da pərakəndə müqavimət göstərən düşmən geri çəkilirdi. Az sonra hamımız Zəfərin sevincini yaşadıq...

Polkovnik-leytenant Nicat Məhərrəmov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Azərbaycan bayrağı" ordeni, "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub...

İkinci Qarabağ müharibəsi zaman anlamında tarixləşib. Bu tarix kitablarda da yaşadılır, xatirələrdə də. Xatirələr də tarixləşir...

Vətən müharibəsində qazanılan tarixi Zəfərimizdən üç il keçir. Neçə illər də keçəcək, bu günün qüruru heç zaman unudulmayacaq...

**Rəşid HÜSEYNOV,**
**foto çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Tibb xidməti*

# Gənc, lakin öz işini yaxşı bilən həkim

Tibb xidməti leytenantı Kamal Abdullayev 2023-cü ildə Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsini bitirib. Zabit kimi hərbi xidmətə başladığı ilk ayda əməliyyat tədbirləri başladı və onun xidmət etdiyi hərbi hissə də bu tədbirlərə cəlb edildi. Qısa müddətdə uğurla başa çatan əməliyyatlardan sonra Kamalın xidmət etdiyi birləşmə dislokasiya yerini dəyişib. Düşməndən təmizlənmiş yeni yaşayış məntəqələrinə gəlib. Dağlıq ərazidə xidmət etməyin özünəməxsus çətinlikləri var. Gənc həkimin nümunəvi xidmətinə nə mürəkkəb relyef, nə də sərt iqlim şəraiti mane ola bilmir. Çünki o öz işini kifayət qədər yaxşı bilir və səhhəti ilə bağlı müraciət edən hər bir hərbi qulluqçunu müayinə edib, onun sağlamlığının bərpası üçün gərəkli tədbirlər görməyə çalışır.

Gənc, öz işinə məsuliyyətlə yanaşan həkim ilk görüşdən xoş təəssürat bağışladı. O, hərbi hissənin məntəqə həkimidir. Təhsil aldığı illərdə cəbhə bölgəsində, çöl-səhra şəraitində xidmət edib, əsgərlərin yanında təcrübə keçib. Xəstələrin qəbulu və müayinəsi ilə bağlı yetərincə bilik və bacarıqlara malikdir. Gənc həkim Kamal Abdullayevlə Xocalı rayonu ərazisində hərbi hissənin tibb məntəqəsində həmsöhbət oldum. Hərbi qulluqçular səhhəti ilə bağlı daha çox nədən müraciət edirlər? - sualımıza gənc həkim belə cavab verir:

- Hazırda hərbi hissəmiz dağlıq ərazidə yerləşir. Hər il yaz-payız aylarında mövsümi xəstəliklər olur. Bu da havanın dəyişməsi ilə bağlı olur. İstidən soyuğa, soyuqdan istiyə keçid dövrü ciddi nəzarət tələb edir. Bunun üçün də əvvəlcədən qabaqlayıcı tədbirlər görürük. Əsgər yataqxanasında otaq hərarətinin normada saxlanması, səliqə-sahmanın yaradılması, otaqlarda havanın dəyişməsi kimi qabaqlayıcı tədbirlər xəstəliklərin kütləvi hal almasının qarşısını alır. Hazırda səhhəti ilə əlaqədar müraciət edən əsgər, demək olar ki, çox azdır.

Xocalıda xidmət etmək onun üçün qürurvericidir. Tibb xidməti leytenantı Kamal Abdullayev deyir ki, Xocalı ötən əsrin ən böyük faciəsinin, soyqırımın yaşandığı məkandır. Erməni vəhşiliyinin, qəddarlığının, amansızlığının ünvanı - Xocalı. Mən xocalılılara qarşı ermənilərin törətdiyi soyqırımı haqqında filmlərdən, qəzet və kitablardan öyrənmişəm. Uşaq, qadın, qoca demədən gecənin bir aləmində erməni silahlı dəstələri şəhərə daxil olub döyüş texnikalarından,



atıcı silahlardan atəş açaraq günahsız insanları güllələbaran ediblər. Xocalı bizim yaddaşımızda belə qalıb.

Otuz ildən sonra yenidən doğma, yaralı Xocalıya qayıtmağımız qürur verir. Ordumuzun Qarabağda keçirdiyi əməliyyatlardan sonra Xocalıya və digər ermənilərin işğalı altında qalan torpaqlarımıza ilk ayaq açan əsgərlərimiz oldu. O əsgərlər ki, on illər ərzində gecə-gündüz demədən təlim keçib döyüş hazırlığını artırıblar. Doğma yurd yerlərimizi erməni vandalizmindən təmizləmək istəyiblər. Vətənimizin məğrur oğulları Ali Baş Komandanın əmrinə müntəzir olaraq Vətən yolunda sinələrini sipər etdilər. Ən qısa zamanda erməniləri məğlub edərək əzəli, əbədi torpaqlara sahibləndilər.

Tibb məntəqəsinin qəbul otağında sanitar-təlimatçı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Mərdan Məmmədli ilə həmsöhbət oluruq. On ilə yaxın ordumuzda şərəflə xidmət edən baş çavuş Mərdan Məmmədli 44 günlük Vətən müharibəsində fəal iştirak edib. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Ağdamın azad olunmasına görə" medalı ilə təltif olunub. İkinci Qarabağ müharibəsi zamanı Mərdan döyüş meydanında yaralanan döyüşçülərə ilk tibbi yardım göstərərək onları təxliyə edib. Baş çavuş hazırda Xocalı şəhərində hərbi xidmətini davam etdirməkdən qürur duyur, neçə illərin arzusuna qovuşduğu üçün sevincinin həddi-hüdudunun olmadığını deyir.

Bu gün Xocalıda, Xankəndidə, Ağdərədə və başqa şəhər və kəndlərimizdə Azərbaycan əsgəri şərəflə xidmətini davam etdirir. Onların sağlamlığının keşiyində Vətəni, xalqını sevən ağxalatlı həkimlər dayanırlar. Azad edilmiş şəhər və kəndlərdə tezliklə yaşayış bərpa olunacaq, həyat öz axarına düşəcək. O zaman hərbi həkimlərimiz də, hazırda olduğu kimi, böyük ruh yüksəkliyi ilə Vətənə xidmət edəcəklər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

Disput

# “Biz də azərbaycanlı olmağımızla qürurlanırıq!”

*Xalqımızın tarixi neçə-neçə min illərlə səsləşir. Dünyanın Azıx möcüzəsi var, Tağlar möcüzəsi var, Gəmiqaya möcüzəsi var, Quruçay möcüzəsi var, daha neçə-neçə qədim insan məskənləri dünya sivilizasiyasının ünvanlarının Azərbaycanla bağlılığının təsdiqi kimi tarixləşib. Qədim tarixə malik olan xalqın milli-mənəvi dəyərləri də mükəmməl olur, geniş olur, dünyəvi, bəşəri olur. 2 fevral 1987-ci ildə Gürcüstanın Xobi rayonunun Çaladidi kəndində iyirmi səkkiz nəfəri daşan seldə ölümdən 19 yaşlı əsgər Rahib Məmmədov qurtarmışdı; azərbaycançılıq həm də insana, insanlara sevgidi. İkinci Qarabağ müharibəsində neçə-neçə döyüşçü yaralı döyüşçünü xilas etmək istəyəndə özü şəhid oldu, neçəsi şəhid döyüşçünü bir tərəfə çıxartmaq istəyəndə gülləyə tuş gəldi...*



Dünya azərbaycanlıların qəhrəmanlığına da yaxşı bələddi. Bu bələdliyin tarixi min illərlə ölçülür. Dünya ona da bələddi ki, bu xalq dünya bina olandan bəri düz ürəklə gələnləri duz-çörəklə, bəd niyyətlə gələnləri siyirmə qılıncla qarşılayıb. Bu xalq torpağını sevib, torpağını Vətənləşdirib...

Hərbi hissədə əsgərlərlə Vətəndən, İkinci Qarabağ müharibəsindən və Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunmasından danışmışıq. Bunları ümumiləşdirən dünyəvi, bəşəri, dönməz bir amaldan danışırıq. Bu amal azərbaycançılıqdır, böyük tarixi şəxsiyyət Heydər Əliyevin təşkilatlandırdığı azərbaycançılığın həmrəyliyidir. 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Bundan 9 gün sonra Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası hər il dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə Sərəncam verdi. Bu tarix dünya azərbaycanlılarının hər il milli-xalqi ruhun işığında qeyd etdiyi milli bayrama çevrildi; dekabrın 31-i hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd edilən tarixi gündür.

Əsgərlər Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün necə tarixləşdiyini yaxşı bilir.

Əsgər Rəşad Səlimov deyir ki, bu günün tarixi gün kimi qeyd olunması Azərbaycanda milli-azadlıq hərəkatı ilə bağlıdır. Hələ 1989-cu ilin noyabrında Naxçıvan Milli Məclisi xalqın tribunası olmuşdu, xalqın istəyini ifadə edərək o taybu tay Azərbaycan arasında bütün mənəvi bağları bərpa etmək üçün sovetlər dönəmindən qalan sərhədlərin aradan qaldırılması, mühəndis-texniki qurğuların sökülməsi haqqında qərar qəbul etmişdi.

Onun fikirlərini əsgər Hacıbala Abbasov tamamlayır:

- Hələ orta məktəbdə oxuyanda öyrənmişdim ki, Naxçıvanda xalqın ruhunun tələbi kimi "Sərhəd hərəkatı" adı ilə müəyyən aksiyalar həyata keçirilib. 1989-cu ilin dekabrın axırlarında Arazın bu tayı ilə Arazın o tayı arasında sərhəd dağıdılıb, sərhəd dirəkləri sökülüb. On illərdi nəfəs-nəfəsə, ruh-ruha həsrət qalmışdı. Nəfəs nəfəsə qovuşdu, ruh ruha sarıldı. 1990-cı ilin 31 dekabrı Naxçıvanda azərbaycançılıq bayramı kimi qeyd olundu.

Əsgərlərin sözünə qüvvət kimi baş leytenant Kənan Rzayev deyir ki, 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etmişdi, bu günün dövlət səviyyəsində bayram elan olunması üçün Azərbaycan Ali Soveti qarşısında məsələ qaldırmışdı.

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bayram kimi qeyd edilir.

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin dünyanın müxtəlif dövlətlərində yaşayan azərbaycanlılara müraciəti də digər kəlamları kimi qeydlər dəftərimdədi. Həmin qeydi əsgərlərə də xatırladıram: "Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir". Xatırlatmam əsgərləri mövzuya daha həssaslıqla səfərbər edir. Deyirəm ki, həmrəylik eyni fikirlilikdir. Vətənini, dövlətini, dövlətçiliyini sevənlərin hamısı eyni fikirli insanlardır. Eyni fikirlilər üçün bir amal olur: Vətən, ömrü Vətən üçün yaşama. Ordu eyni fikirlilərin Hərbi And və vətəndaşlıq borcu əsasında birliyidir. Ona görə dövlətin güc strukturu kimi, dövlətin, dövlətçiliyin qarantı kimi möhtəşəmdir, qüdrətlidir. Yəni azərbaycançılıq ideologiyası ordu quruculuğunda da dönməzliklə həyata keçirilir. Deməli, 31 Dekabr hərbi qulluqçuların da əziz bayramıdır.

Çavuş Elməddin Əliyev deyir ki, Vətən müharibəsində qazandığımız Zəfər həmrəyliyimizin, xalq-iqtidar birliyinin, ruhən birliyin nümunəsidir. 44 günlük Vətən müharibəsində Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəliyi ilə ordumuz işğalı sonlandırdı. Bu qələbə Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsində, nüfuzunun yüksəlməsində mühüm rol oynadı. Bu qələbə ordunun döyüş və mənəvi hazırlığının, xalqla ordunun birliyinin, sərkərdəlik qüdrətinin, azərbaycançılığın qələbəsi idi. Dünya ictimaiyyəti etiraf edir ki, bu qələbə həm də dünyanın müxtəlif dövlətlərində yaşayan azərbaycanlıların qələbəsi oldu. Onlar da ruhən döyüşənlərin sırasında idi; bu tarixi Zəfərin Azərbaycan Ordusunun gücü, sərkərdəlik qüdrəti, ordu ilə xalqın birliyi, azərbaycançılıq əsaslanan mənəvi birlik ilə qazanıldı.

Əsgər Rəşad Səlimov deyir ki, həmrəylik birlik deməkdir. Əsgər İlham Əliyev bu fikri bir atalar sözü ilə tamamlayır: "Birlik harada, dirilik orada".

Hər iki əsgərin bu bayramın mahiyyəti ilə səsləşən deyimləri əsgərlərin düşüncələrində incə bir tərpəniş yaradır. Əsgər Bayram Qafarov əsgər yoldaşlarının fikirlərini tamam fərqli formatda - Xalq şairi Məmməd Arazın misraları ilə davam etdirir:

Azərbaycan - qayalarda
bitən bir çiçək,
Azərbaycan - çiçəklərin
içində qaya.
Mənim könlüm bu torpağı
vəsf eləyərək,
Azərbaycan dünyasından
baxar dünyaya.

Azərbaycan adının qüdrətidi, Azərbaycana sevginin qüdrətidi, Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü bayraqlaşdırmağın qüdrətidi ki, əsgər Nihat Abbasov şeirin sonluğunu fikrin davamı kimi deyir:

Azərbaycan mayası nur,
qayəsi nur ki...
Hər daşından alov dilli
ox ola bilər.
"Azərbaycan!" deyiləndə
ayağa dur ki,
Ana yurdun ürəyinə
toxuna bilər.

Əsgər Fuad Həsənovun dedikləri də həm maraqla, həm də duyğusallıqla dinlənilir:

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il dekabrın 31-də xalqa müraciətində demişdi: "Azərbaycan xalqı artıq dünyada müzəffər xalq kimi, Azərbaycan dövləti isə müzəffər ölkə kimi tanınır. Onu da bildirməliyəm ki, bu il Azərbaycana olan ənənəvi dəstək və hörmət daha da artdı və bunun başlıca səbəbi İkinci Qarabağ müharibəsindəki Zəfərimiz, müharibə dövründə bütün müharibə qaydalarına riayət etməyimiz və müharibədən sonra özümüzü ləyaqətlə aparmağımız idi". Dövlət başçımızın dediyi bu sözləri onda gözəl bayram ovqatı bilmişdik, Bayramı gözəl ovqatla qarşılamışdıq. Bu il Dünya Azərbaycanlılarının Həmrəylik Gününü əsgər yoldaşlarımla, komandirlərimizlə birlikdə qarşılayacağıq. Bizə elə gəlir ki, bu ilki ovqat daha möhtəşəm olacaq.

Əsgər Yediyar Hacıyev hamımızın qüruruna dönən bir fikir deyir:

- Əlbəttə, möhtəşəm olacaq. Üç il əvvələ kimi torpaqlarımız işğalda idi, bu ilin sentyabrında ərazi bütövlüyümüz tam bərpa edildi. Bu il torpaqlarımızın hər yerində bayram ovqatı yaşanılacaq. Biz bu ovqatı daha gözəl yaşayacağıq.

Əsgər Vüqar Bədəlov bu gözəl fikirləri gözəl davam etdirir:

- Bu il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bizim hərbi xidmət dostluğumuzu da möhkəmləndirəcək, dostluq ən gözəl həmrəylikdir...

"Bu bayram hamımızın bayramıdır, hamı üçün duyğu bayramıdır. Belə bir bayramın hansı kəlamla qarşılanmasını istərdiniz?", - soruşuram. Sorğum maraq sorğusudur, əsgər cavabı olduğuna görə cavabların hamısı könlümüzə yatacaqdı. Hər halda, fəlsəfi mahiyyəti ilə seçiləcək cavab düşüncələrimizi daha dolğunluqla işıqlandıracaqdı. Araya çökən sükutun sovuşacağı ana tələsirik. Əsgər Qurban Süleymanovun səslləndirdiyi fikir hamımıza xoş gəlir: Bu bayram azərbaycançılığın bayramıdır. Ona görə istərdim ki, 31 Dekabrı Ulu Öndərin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamının qüruru ilə qarşılayaq.

Əsgərlər onun təklifini bəyənir, zabit bu təklifə görə əsgərə təşəkkür edir. Həm disputda fəal iştirakına görə, həm gərəkli sualı cavablandırdığına görə, həm də böyük tarixi şəxsiyyətin yaşarı kəlamlarına bələdliyinə görə. Elə bu cavablandırma da təsdiqləyir ki, Azərbaycan əsgəri böyük tarixi şəxsiyyət Heydər Əliyevin irsini ehtiramla öyrənir...

Bugünkü disputda iştirak edən hərbi qulluqçuların timsalında Azərbaycan Ordusunun şəxsi heyətini "Azərbaycan Ordusu" qəzeti adından 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibəti ilə təbrik edirəm, hamısına xidməti uğurlar, can sağlığı arzulayıram. Əmin olduğumu bildirirəm ki, onlar ərazi bütövlüyü tam bərpa edilmiş Azərbaycanımızın işğaldan azad edilmiş ərazilərində quruculuq işlərinin daha möhtəşəmliklə genişlənməsinin sıravi əsgərlərinə də mənəvi həmrəyliyini bildirəcəklər...

Disput başa çatır. Əsgərlərdən gözəl ovqatla ayrılırıq...

**Mayor**
**Məhəmməd NƏSİRLİ**
**"Azərbaycan Ordusu"**

# Şəhidin anım mərasimi keçirildi





*Vətən uğrunda can verən oğullar heç zaman unudulmurlar. Bu oğullardan biri də Birinci Qarabağ müharibəsi şəhidi, kapitan Teymur İbrahimovdur. Onun ailə üzvləri, yaxınları, döyüş yoldaşları, keçmiş komandirləri və kursantlar şəhidin xatirəsini yad etmək məqsədilə Azərbaycan Hərb Tarixi Muzeyinə toplandılar.*

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

"Vətən uğruna köz olan ömür!" adlı mərasimdə Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, istefada olan polkovnik Əzizağa Qənizadə çıxış edərək onun ömür və döyüş yolu haqqında daha ətraflı danışmağa başladı. "Qarabağda hərbi əməliyyatlar zamanı neçə-neçə igid oğul canlarından keçərək şəhidlik zirvəsinə yüksəldi. Belə Vətən övladlarından biri də kapitan Teymur İbrahimovdur. O, 1974-cü il yanvarın 2-də Xaçmaz rayonunun Qusarçay kəndində anadan olub. Azərbaycanın ağır günlərində müxtəlif bölgələrdə toplanışlar keçirilərək kompleksləşdirilmiş əsgəri bölmələr cəbhəyə göndərilirdi. 18 yaşlı Teymur İbrahimov da çağırışla şəxsi heyətin sırasına daxil edilmişdi. Tabor hazırlıq keçdikdən sonra ağır döyüşlərin getdiyi Qubadlı-Laçın bölgəsinə göndərilir. Onlar xeyli itki versələr də, bu, Teymuru qətiyyən qorxutmur, əksinə, daha da mətinləşdirir. Fədakarlığı və bacarığı nəzərə alınaraq döyüş bölgəsində taqım komandiri vəzifəsi ona tapşırılır. O, zabitlik kursunu da müvəffəqiyyətlə bitirir. Atəşkəsdən sonra kəşfiyyata marağı olan və bacarıqlı zabit kimi hörmət qazanan Teymur İbrahimov kəşfiyyatçıların bölük komandiri vəzifəsinə təyin olunur. Neçə illər ərzində hər bir vəzifənin öhdəsindən layiqincə gələn kapitan sonuncu tapşırığı yerinə yetirərkən 1998-ci il avqustun 26-da qəhrəmancasına şəhid olur", - deyərək çıxışını sonlandırdı.

Daha sonra Azərbaycan Milli Müdafiə Universitetinin professoru, tarix elmləri doktoru, 1-ci dərəcəli kapitan Nurulla Əliyevin müəllifi olduğu "44 günlük Vətən müharibəsi" adlı kitab muzey rəisinə təqdim olundu.

Ehtiyatda olan zabitlər Zeydulla Zeydullayev, Dağbəyi Məhyəddinov, general-leytenant Yaşar Aydəmirov şəhidlə bağlı xatirələrindən danışdılar. Söhbət zamanı onun Vətən sevgisi yüksək qiymətləndirildi.

Şəhidin adını daşıyan qardaşı oğlu Teymur İbrahimov ailəsindən eşitdiyi xatirələri tədbir iştirakçıları ilə bölüşdü.

Sonda şəhidə həsr olunmuş sənədli film nümayiş etdirildi.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

# Şəhidlərə ehtiram dövlətçiliyə ehtiramdır

Lerik rayonunun Cəngəmiran kəndində bu ilin sentyabr döyüşlərində qəhrəmancasına şəhid olan Savalan İsfəndiyar oğlu Qafarovun anadan olmasının 20 illiyinə həsr olunmuş tədbir keçirildi.





Kəndin şəhidlərinin xatirəsinə yaradılmış Şəhidlər xiyabanının ziyarəti ilə başlanan tədbirdə Qarabağ şəhidlərinin valideynləri, yaxınları, Lerik rayonu İcra Hakimiyyətinin başçısı və məsul əməkdaşları, hüquq-mühafizə orqanlarının rəhbərləri, kənd ictimaiyyəti iştirak etdilər.

Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu, Dövlət Himnimiz səsləndirildi. Şəhidin döyüş yolunu əks etdirən videoçarx nümayiş etdirildi.

Tədbiri giriş sözü ilə açan Lerik rayonu Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov şəhidimizin qısa, ancaq şərəfli və mənalı ömür yolu haqqında tədbir iştirakçılarına məlumat verdi.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən Qafarov Savalan İsfəndiyar oğlunun ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunduğunu da qeyd etdi.

Lerik rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov İkinci Qarabağ müharibəsinin və əməliyyat tədbirlərinin döyüşlərindən, ordumuzun gücündən, Ali Baş Komandanın sərkərdəlik məharətindən, xalqla ordunun birliyindən danışdı. Ərazi bütövlüyümüzün tam bərpa olunması uğrunda gedən döyüşlərdə şəhid olanlara öz ehtiramını ifadə etdi, dövlətin hər zaman şəhid ailələrinin yanında olduğunu bildirdi.

Vətən Müharibəsi Qəhrəmanı şəhid mayor Amid Heydərovun atası R.Heydərov, Birinci Qarabağ müharibəsi veteranı M.Məmmədov, Cəngəmiran ərazi icra nümayəndəsi Ə.Həsrətov, şəhid atası M.Yaqublu, şəhid qardaşı M.Feyruzov çıxış edərək bildirdilər ki, şəhidlərimizin xatirəsi xalqımız üçün hər zaman əzizdir, onların keçdiyi yol gənc nəslə örnəkdir.

Şəhidin atası İsfəndiyar Qafarov çıxışında tədbir iştirakçılarına ailəsi adından minnətdarlığını və şəhidlərimizə bu ehtiramlı münasibətin böyük təsəlli olduğunu bildirdi.

Şəhid Savalan Qafarovun doğum günü ilə bağlı Cəngəmiran məktəbində "Şəhidlər unudulmur" mövzusunda keçirilən inşa müsabiqəsində və stolüstü oyunlar üzrə yarışların qaliblərinə qiymətli hədiyyələr, diplomlar təqdim olundu.

Məktəblilərin təqdimatında hazırlanmış ədəbi-bədii kompozisiya və şəhidlərə həsr olunmuş şeirlər səsləndirildi.

**Müşfiq MƏMMƏDOV**
**Birinci Qarabağ müharibəsi veteranı**

# Xəbərlər: hadisələr, faktlar

## Aİ ölkələri ABŞ-ın Qırmızı dənizdə keçirəcəyi əməliyyatda iştirak etmək qərarına gəlib



Avropa İttifaqına (Aİ) üzv ölkələr Qırmızı dənizdə gəmilərin təhlükəsizliyini təmin etmək üçün ABŞ-ın "Prosperity Guardian" əməliyyatında iştirak etmək qərarına gəlib.

Bunu Aİ xarici siyasət xidmətinin rəhbəri Jozep Borrel deyib.

"Husilərin məsuliyyətsiz hərəkətləri Qırmızı dənizdə gəmilərin hərəkətinə təhlükə yaradır. Aİ-nin daimi nümayəndələrinin bugünkü fövqəladə iclasında üzv dövlətlər ABŞ-ın keçirəcəyi əməliyyata töhfə verməyə razılaşdılar", - Aİ diplomatiyasının rəhbəri qeyd edib.

## Blinken: İsveç tezliklə NATO-ya üzv olacaq



İsveç tezliklə NATO-ya üzv olacaq və bu, alyansın potensialını gücləndirməyə xidmət edəcək.

Bu sözləri ABŞ-ın Dövlət katibi Entoni Blinken Dövlət Departamentində ilin yekunlarına dair mətbuat konfransında deyib.

"Bu il NATO-ya 31-ci üzv - Finlandiya qəbul edildi və İsveç də yaxın gələcəkdə bura qoşulacaq. Bu da alyansın müdafiə potensialını və imkanlarını gücləndirəcək", - deyə ABŞ-ın Dövlət katibi bildirib.

## ABŞ Ukraynaya hərbi yardım paketi göndərəcəyini açıqlayıb



ABŞ dekabrda Kiyevə daha bir hərbi yardım paketi göndərəcək.

Bunu Ağ Evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi brifinqdə söyləyib.

"Biz hələ də bu ayın sonunda Ukraynaya əlavə yardım paketi çatdırmağı planlaşdırırıq", - o deyib. Kirbinin sözlərinə görə, bundan sonra ABŞ Kiyevə yardım göstərmək imkanlarını tükənəcək, ona görə də Ukraynaya gələcək dəstək ABŞ Konqresinin təsdiqini tələb edəcək. "Bizim Konqresin gecikmədən hərəkətə keçməsinə ehtiyacımız var", - deyə Ağ Ev sözçüsü əlavə edib.

## WSJ: HƏMAS İsrailin bir həftəlik atəşkəs təklifini rədd edib



Fələstinin radikal HƏMAS hərəkatı onlarla girovun azad edilməsi müqabilində İsrailin təklif etdiyi bir həftəlik atəşkəs razılaşmasını rədd edib.

Bu barədə "The Wall Street Journal" (WSJ) Misir rəsmilərinə istinadən məlumat yayıb.

Məlumata görə, İsrail təcili tibbi yardıma ehtiyacı olan bütün qadın, uşaq və qocalar da daxil olmaqla 40 nəfərin azad edilməsini istəyib. Bunun müqabilində yəhudi dövləti Qəzza zolağında quru və hava əməliyyatlarını bir həftə müddətinə dayandırmağı təklif edib, həmçinin anklava humanitar yardımın çatdırılmasına zəmanət verib.

Qəzetin həmsöhbətlərinin fikrincə, danışıqların bu nəticəsi uğursuzluq kimi qiymətləndirilməməlidir, söhbət Fələstin hərəkatının İsraildən daha böyük güzəştlər əldə etmək cəhdindən gedir. Xüsusilə də HƏMAS nümayəndələri yalnız atəşkəsdən sonra israilli girovların qaytarılması məsələsini müzakirə etməyə hazır olduqlarını bəyan ediblər. Bundan əlavə, Fələstin İslami Cihad qrupu 100-dən çox girov müqabilində İsraildən sayı minlərlə olan bütün hərəkatın iştirakçılarını həbsxanalardan azad etməyi tələb edir.

**AZƏRTAC-ın**
**materialları əsasında**

# Azərbaycan Ordusunda ictimai-siyasi hazırlıq dərsləri keçirilir





Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2023-cü il üçün hazırlıq planına əsasən, hərbi qulluqçuların maarifləndirilməsi üzrə tədbirlər çərçivəsində Azərbaycan Ordusunda ictimai-siyasi hazırlıq dərsləri keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana uyğun olaraq keçirilən dərslərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin çıxışlarında Azərbaycan Ordusu haqqında səsləndirdiyi fikirlər, eləcə də ölkəmizdə və dünyada baş verən hadisə və yeniliklərlə bağlı məlumatlar şəxsi heyətə çatdırılır.

Bundan başqa, hərbi qulluqçularla aparılan söhbətlər zamanı döyüş əməliyyatlarında qəhrəman hərbçilərimizin göstərdikləri igidlik və şücaət nümunələrindən danışılır, azad olunmuş ərazilərimizin tarixindən bəhs edilir.

Tərbiyəvi iş və siyasi məlumatlandırma saatlarında, həmçinin şəxsi heyəti maraqlandıran suallar cavablandırılır və xidmətləri ilə bağlı lazımi tövsiyələr verilir.

# PUA bölmələri ilə təlim-məşq uçuşları icra edilib



Müdafiə nazirinin təsdiq etdiyi hazırlıq planına əsasən, Azərbaycan Hərbi Hava Qüvvələrində (HHQ) pilotsuz uçuş aparatları (PUA) bölmələri ilə təlim-məşq uçuşları yerinə yetirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, PUA heyətləri müəyyən edilmiş marşrutlar üzrə hava kəşfiyyatının aparılması, şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin olunaraq dəqiq aviasiya zərbələri ilə məhv edilməsi, eləcə də digər fəaliyyətləri yerinə yetiriblər.

Təlimdə qarşıya qoyulan bütün tapşırıqlar müvəffəqiyyətlə icra olunub.

Esse

# Fələyin yazdığını poza bilsəydim əgər...

Salam, şəhid anası, anam, anamız. Məni də özünə övlad bil. Sənə baş çəkməyə gəlmişəm. Getməzdən əvvəl oğlun "anama göz-qulaq olun", - demişdi...

Axan göz yaşını da görən olmayıb - göz yaşların ürəyinə axıb o getdiyi gündən. Əminsən. Qəhrəman böyütmüşdün, onun qayğısına qala-qala ocağın istisi əllərini yandırıb, qışın şaxtası - üşüdüb. Quzeyin soyuq küləyini ciyərlərinə çəkmisən. Öyüd-nəsihət verəndə, "Əsl sevgin Vətən olsun, xalq olsun!", - demisən.

Əllərindən öpürəm, əziz anamız. Xalqını zəfərə oğullar yetirdi - sizin övladlarınız yetirdi, siz yetirdiniz. Düşmənə meydan oxuyan, torpağı yağıdan təmizləyənlərin sırasında sənin oğlun da olub. Oğlun elə bir zirvədədir ki, o yüksəklik, o zirvə müqəddəslikdir.

Həyatın dəyərini bilən, onu qiymətləndirməyi bacaran insanlar ölümü də dəyərləndirməyi bacarırlar. Peyğəmbərimiz Məhəmməd Mustafa (s.v.) buyurub: "Hər canlı bir gün ölümü dadacaqdır. Lakin torpaq, Vətən, haqq uğrunda canlarından keçib bir qarış torpaq belə düşmənə verməyənlər, haqq uğrunda bədənlərini kor mərmiyə sipər edənlər "ölmür", onlara "ölü" demirik. Onlar şəhiddirlər. Allah



qatında şəhidlər cənnətlə mükafatlandırılıb".

Sən başını dik tut, şəhid anası. Necə ki, bacarırsan uca olmağı, ülvi olmağı bacaran ana. Sən Azərbaycan qadınısan!

Ulu Öndər Heydər Əliyevin Azərbaycan qadını haqqında dediyi fikirləri heç kim unutmur: "Dünyanın yarıdan çoxunu gəzdim. Çox insan tanıdım. Çox qadın gördüm. Lakin Azərbaycan qadını qədər gözəl, ağıllı, mərd, cəsur qadın görmədim".

Dahi rəhbərin kəlamının təcəssümünü səndə görürəm. Səndə görürəm Azərbaycan qadınının mərdliyini, qürurunu, cəsarətini.

Sən oğluna öyrətdin övlad sevməyi, ana sevməyi, Vətən sevməyi. Buna görə sevdiklərindən də üstün tutdu torpaq, Vətən sevgisini.

Vaxtsız ağaran saçlarının haqqını halal et bizə. Təravətli üzünə erkən düşmüş qırışın haqqını halal et bizə. Tez-tez gözünü naməlumluğa dikəndə, çəkdiyin ahın haqqını halal et bizə. Əynindən çıxarmadığın qara libasın sıxıntısını halal et bizə.

Fələyin yazdığını poza bilsəydim əgər, başındakı qara örpəyi, qırmızı örpəklə əvəzləyərdim.

Fələyin yazdığını poza bilsəydim əgər, saçlarındakı bəyazların rəngini dəyişərdim, oğulunu oxşayıb-əzizlədiyin vaxtların rənginə qaytarardım.

Şəhid anası dərdini içində çəkər. Fələyin yazdığını poza bilsəydim əgər, dərdini səndən alar, ahını dağlara-daşlara səpələyərdim.

Fələyin yazdığını poza bilsəydim əgər, Günəşini sənə qaytarardım. Sənin Günəşin oğlundu...

Sizin böyütdüyünüz oğullar on milyonluq xalqın taleyində qəhrəmanlıq obrazına çevrildilər, siz - qürur və ucalıq rəmzinə.

Xatırlayırsanmı, ana, ona tarix dərsini necə sevgilərlə öyrədirdin. Bilmirdin o zaman tarixi dərsliklərdən oxuyan oğulun, bir gün xalqın şanlı tarixini özü yazacaq.

Şuşa kimi alınmaz qalanı düşmən tankla, texnikayla ələ keçirmişdi. Sənin oğlun Şuşasını qeyrət silahıyla, şücaət silahıyla, azərbaycançılığıyla azad elədi. Ona igidliyin, qorxmazlığın silahda, sursatda deyil, ürəkdə, biləkdə olduğunu sən aşılamışdın...

Əllərindən öpürəm, şəhid anası, anamız. Baş əyirəm qarşında. Yanındayam. Ələmini-kədərini qoy çiyinlərimə, qəhərin mənim qəhərimdi. Təbəssümünü, baharını gətir 30 illik həsrət çəkən torpaqlara. 30 illik çiləyə, 30 illik səbrə son qoyuldu.

**Nuray NƏZƏROVA**
**Bakı şəhəri**

# İdman

## Azərbaycanın MMA döyüşçüsü ardıcıl 10-cu qələbəsini qazanıb



Azərbaycanın MMA döyüşçüsü Süleyman Süleymanov növbəti döyüşünü keçirib.

70,3 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançı Tailandın paytaxtı Banqkokda təşkil olunmuş "ONE Friday Fight" yarışında rinqə çıxıb.

"Lumpini" arenasında baş tutan görüşdə rəqib qırğızıstanlı Nursultan Toktorov olub. İkinci raundda rəqibini məğlub edən S.Süleymanov peşəkar karyerası ərzində keçirdiyi 10-cu döyüşündə də qələbə qazanıb.

## Azərbaycanın bədii gimnastları Londonda 6 qızıl, 1 gümüş medal qazanıblar



Azərbaycan bədii gimnastları Böyük Britaniyanın paytaxtı London şəhərində keçirilən "Winter Stars" beynəlxalq turnirində yeddi medal qazanıblar.

"Ocaq Sport" Klubunu təmsil edən idmançılardan altısı fəxri kürsünün ən yüksək pilləsinə qalxıb, biri isə ikinci yeri tutub.

Nilay Quliyeva, Alsu Abdullayeva və Röya Alıkişiyeva topla hərəkətlərin icrasında hakimlərdən ən yüksək xalı alıblar. Evelin Yoşpa və Maya Kozaçuk halqa ilə hərəkətlərdə qızıl medala sahib çıxıblar. Gürzlə hərəkətlərdə isə M. Kozaçuk bütün rəqiblərini qabaqlayıb, R.Alıkişiyeva gümüş mükafatla kifayətlənib.

## Azərbaycanın MMA döyüşçüsü cəmi bir dəqiqəyə gürcü rəqibini məğlub edib



Gürcüstanın Tbilisi şəhərində "Georgian Fighting Championship" turnirinin 25-ci seriyası keçirilib.

Yarışda Azərbaycan təmsilçisi Əliskəndər Əliyev (77 kiloqram) rinqə çıxıb. Gürcüstanlı tanınmış idmançı Giorgi Tabatadze ilə qarşılaşan Ə.Əliyev erkən qələbə qazanıb.

O, rəqibini birinci raundun ilk dəqiqəsində boğucu fəndlə məğlub edib.

## Azərbaycan üzgüçüləri beynəlxalq turnirdə 4 qızıl, 1 gümüş medal qazanıblar



Azərbaycan üzgüçüləri Macarıstanın Kapoşvar şəhərində yeniyetmələr arasında keçirilən beynəlxalq turnirdə beş medal qazanıblar.

Süleyman İsmayılzadə sərbəst üsulla 1500 metr və 400 metr məsafəyə üzmə yarışında bütün rəqiblərini qabaqlayaraq, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Müvafiq olaraq, 16:10,99 və 04:08,42 nəticə göstərən idmançı yeniyetmələr arasında Azərbaycan rekordunu yeniləyib.

Digər üzgüçümüz Oqtay Hüseynov da beynəlxalq turnirdə milli komandamızın hesabına qızıl medal yazdırıb. O, 400 metr məsafəyə qarışıq üsulla üzmədə finişə hamıdan tez çatıb. İdmançı eyni məsafəyə sərbəst üsulla üzmə yarışında isə ikinci yeri tutub.

**AZƏRTAC-ın materialları əsasında**

Mayor Əliyev Həmid Məhəmməd oğluna məxsus MN № 0063770 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Hüseynov Taleh Hacı oğluna məxsus SQ № 0012307 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Allahverdiyev Rahib Amil oğluna məxsus AD № 0069340 nömrəli və əsgər Qasımlı Mübariz Əli oğluna məxsus AD № 0056054 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Baş redaktorun müavini
mayor
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Kapitan
Orxan HÜSEYNLİ

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 986
Nüsxə 4752